## Vergi cinayətləri sahəsində Vergilər Nazirliyinin səlahiyyətləri

Vergi Məcəlləsinin 20.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında dövlət vergi orqanlarını müvafiq icra hakimiyyəti orqanı və bilavasitə ona tabe olan vergi orqanları təşkil edir. Vergi orqanları öz səlahiyyətləri çərçivəsində hüquq mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirirlər.

Vergi Məcəlləsinin 26.1-ci maddəsinə müvafiq olaraq, vergi orqanları öz vəzifələrini mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, maliyyə və digər dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirirlər.

Vergi Məcəlləsinin 23.1.12-ci maddəsində qeyd edilmişdir ki, vergi orqanları Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (bundan sonra - CPM) ilə müəyyən edilmiş qaydada təhqiqat aparmaq hüququna malikdirlər.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə»nin 9.14-cü bəndində nazirliyin funksiyaları qismində qanunvericiliyə uyğun olaraq cinayət işləri üzrə təhqiqat, istintaq aparmaq və əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək qeyd edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanının 3-cü bəndinə əsasən, CPM-in 215.5-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - CM) 192-ci (Qanunsuz sahibkarlıq), 192-1-ci (Qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi), 193-cü (Yalançı sahibkarlıq), 205-1-ci (Saxta aksiz markalarını hazırlama, əldə etmə və ya satma), 213-cü (Vergi ödəməkdən yayınma) və 213-1-ci (Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə) maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə ibtidai istintaq Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən aparılır.

Bundan əlavə, «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» 28 sentyabr 2002-ci il tarixli Fərmanın 4-cü bəndinə əsasən CM-in 192-ci, 193-cü və 213-cü maddələri üzrə cinayət işləri Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən başlandıqda, həmin cinayətlərin ibtidai istintaqı zamanı CM-in 178-ci (Dələduzluq), 179-cu (Mənimsəmə və ya israf etmə), 184-cü (Aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlaka ziyan vurma), 195-ci (Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə), 196-cı (Kreditor borclarını ödəməkdən qəsdən yayınma), 197-ci (Əmtəə nişanlarından qanunsuz istifadə etmə), 198-ci (Bilə-bilə yalan reklam etmə), 199-cu (İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma), 200-cü (İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma), 201-ci (Əqdin bağlanmasına və ya onun bağlanılmasından imtinaya məcbur etmə), 202-ci (Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma), 203-cü (Qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma), 204-cü (Saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma), 205-ci (Saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama və ya satma), 208-ci (Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama), 210-cu (Müflisləşmə zamanı qanunsuz hərəkətlər), 211-ci (Qəsdən müflisləşmə), 212-ci (Saxta müflisləşmə), 308-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə), 309-cu (Vəzifə səlahiyyətlərini aşma), 311-ci (Rüşvət alma), 312-ci (Rüşvət vermə), 313-cü (Vəzifə saxtakarlığı), 314-cü (Səhlənkarlıq), 320-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) və 326-cı (Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə) maddələrində göstərilən cinayətlərin əlamətləri aşkar olunduqda, göstərilən işlər üzrə ibtidai istintaq Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən aparılır.

Qeyd edək ki, «Əməliyyat-axtarış fəaliyyəti» haqqında Azərbaycan Respublikasının Qanunun tələblərinə əsasən, Vergilər Nazirliyi əməliyyat-axtarış fəaliyyətinin subyekti hesab olunur.

Həmçinin, Vergilər Nazirliyi «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» 19 iyun 2001-ci il tarixli Fərmanın 1-ci bəndinə əsasən iqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar öz səlahiyyətləri çərçivəsində binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi kimi əməliyyat-axtarış

tədbirlərini həyata keçirir. Eyni zamanda, qeyd edilən Fərmanın 2-ci bəndinə müvafiq olaraq, əməliyyat-axtarış fəaliyyəti prosesində hüquqi şəxsin yaradılması Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər Nazirlikləri ilə yanaşı, Vergilər Nazirliyinə də həvalə edilmişdir.

Qanunvericiliklə müəyyən edilmiş hallarda vergi hüquqpozmalarına və cinayətkarlığa qarşı mübarizə sahəsində təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyəti Vergilər Nazirliyinin struktur bölməsi olan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən həyata keçirilir.